## QUZEY AZƏRBAYCANIN NEFT SƏNAYESİNDƏ İLK SƏHMDAR CƏMİYYƏTLƏRİ VƏ ONLARIN FƏALİYYƏTİ

A.M.HƏZİYEV

Quzey Azərbaycanda neft sənayesinin inkişaf tarixinin geniş tədqiqinə baxmayaraq, neft sənayesində səhmdar cəmiyyətlərinin fəaliyyəti kifayət qədər araşdırılmamışdır. Hazırda neft sənayesinin intensiv inkişafı həmin məsələnin daha ətraflı öyrənilməsi zərurətini doğurur.

Araşdırmalar göstərir ki, Quzey Azərbaycanda ilk səhmdar cəmiyyətləri XIX əsrin 70-ci illərində yaranmışdır. Bu vaxta qədər burada neft sənayesi hərtərəfli inkişaf etməmişdir. Buna başlıca olaraq o dövrdə mövcud olmuş iltizam sistemi mane olurdu.

İltizam sisteminin ləğvi ilə neft sənayesinin inkişafında kapitalizm dövrü başlanmışdır (5, səh.24). XIX əsrin 80-ci və xüsusilə də 90-cı illərində neft sənayesində buruq-qazma texnikası, neft istehsalı və emalı texnalogiyası xeyli təkmilləşmiş, nəqletmə və neft məhsullarının saxlanma üsulları müasirləşmişdir. (2, səh.11).

Bütün görülən tədbirlər Bakıda neft sənayesinin sürətlə inkişafına səbəb oldu. 1870-1880-ci illərdə neft çıxarılması 10 dəfə artdı (1, səh.606). 1873-ci ildə Bakıda 3,9 mln pud xam neft çıxarıldığı halda, 1894-cü ildə hasilat artıq 340 mln puda qədər artmış, ABŞ-da çıxarılan neft istehsalı səviyyəsinə çatmışdır. Belə bir şəraitdə Quzey Azərbaycanın neft sənayesində səhmdar cəmiyyətləri yaranır və bu cəmiyyətlər neft istehsalı və ticarətini öz əllərində cəmləşdirirdilər (1,səh.6O7). Səhmdar cəmiyyətlərinin yaradılması məhsuldar qüvvələrin inkişafına təkan verməklə yanaşı, istehsalın təmərküzləşməsi üçün də lazimi şəraitin yaranmasına kömək edirdi.

Quzey Azərbaycanın neft sənayesində ilk səhmdar cəmiyyətlərinin təsisat prosesinin gedişi (4, səh. 234-237) göstərir ki, burada neft sənayesində ilk səhmdar cəmiyyəti 1874-cü ildə yaradılmışdır.

**Cədvəl 1**

**Quzey Azərbaycanın neft sənayesində ilk səhmdar cəmiyyətləri**

| № | Cəmiyyətin adı | Təsis tarixi |
|---|---|---|
| 1 | Bakı neft cəmiyyəti (B.N.C.) | 1874 |
| 2 | «Nobel qardaşları» | 1879 |
| 3 | «Bakı neft şirkəti S və I Cakeli» | 1880 |
| 4 | Xəzər-Qara dəniz neft və ticarəti cəmiyyəti | 1883 |
| 5 | Rus «Neft» cəmiyyəti | 1883 |

Bu 1 000 000 rubl əsas kapitalı olan «B.N.C.» səhmdar cəmiyyəti idi (6, səh.115).

«B.N.C.» Petroqraddan idarə olunurdu. 1914-cü ildə bu cəmiyyətin əsas kapitalı 6,8 milyon rubl, 1917-ci ildə isə 7,8 milyon rubl olmuşdur. Cəmiyyətin 1917-ci ildə Bakı rayonunda neft mədənləri, neftayırma zavodu və qaz kəməri var idi. «B.N.C.» «Neft» qrupuna məxsus idi və «Rus-Asiya» bankı tərəfindən nəzarət olunurdu (9, səh. 541).

"B.N.C." səhmdar sindikatı ilə əlaqədar Rus ticarət sənaye bankının Peterburq xüsusi bankına 1912-ci il martın 22-də göndərdiyi məktubundan görünür ki, bankların sənaye ilə qovuşması prosesində yaranan konsorsiumlar (sindikat) müəyyən müddətə sənaye müəssisələrinin səhm paketlərini idarə etmək funksiyasını öz üzərlərinə götürürdülər (7, səh. 121).

Quzey Azərbaycanın neft sənayesində ikinci səhmdar cəmiyyəti 15 milyon rubl kapitalı olan və 1879-cu ildə fəaliyyətə başlayan «Nobel qardaşları» şirkəti idi. Bu şirkət Bakı neft sənayesinə can atan ilk xarici şirkət idi (3, səh. 12).

Öz müəssisələrini fəaliyyətə başladığı ildə səhmləşdirməyə başlayan «Nobel qardaşları» tezliklə öz kapitallarını xeyli artırmışlar. Bu şirkətin yarandığı dövrdə səhmdar kapitalı 3 milyon rubl idisə, 1882-ci ildə bu rəqəm 10 milyon rubla, 1884-cü ildə isə 15 milyon rubla qədər artmışdır. «Nobel qardaşları şirkəti»nin əsas kapitalı isə 21,7 milyon rubl olmuşdur (8,səh. 682).

«Nobel qardaşları şirkəti» ilk dəfə olaraq nefti daşımaq üçün tankerlərdən və vaqon-sisternlərdən istifadə etmiş və ilk neft kəmərləri çəkdirmişlər. 1912-ci ildə səhmlərini Berlin birjasına qoyan «Nobel qardaşları» bu səhmlərin xeyli miqdarının «Diskonto Gezelşaft» bankı tərəfindən satın alınması və onların ümumi miqdarının 40 faizə çatdırılması nəticəsində həmin maliyyə qrupu öz nümayəndəsini «Nobel qardaşları» şurasının tərkibinə daxil etmək hüququ qazandı. Həmin səhm buraxılışı sayəsində şirkətin səhm kapitalı 30 milyon rubl, istiqraz

kapitalı 16,34 milyon rubl, ehtiyat kapitalı isə 32 milyon rubl təşkil etdi (6, səh. 240). 1880-ci ildə yaradılmış Bakı neft şirkəti "S. və İ.Cakeli " digər səhmdar cəmiyyətləri ilə müqayisədə böyük deyildi.

Əvəzində, əsası 1883-cü ildə qoyulan «Xəzər-Qara dəniz neft sənayesi və ticarəti cəmiyyəti», «Nobel qardaşları şirkəti» kimi ən böyük neft sənayesi kampaniyalarından biri olmuşdur. Bu səhmdar cəmiyyəti Petroqraddan idarə olunurdu.

Kampaniya 1883-cü ildə mühəndislər A.A.Bunqe və S.S.Palaşkovski tərəfindən təsis olunmuş «Batumi neft sənayesi və ticarəti cəmiyyəti» (B.N və T.C) bazası əsasında yaranmışdır. Lakin «B.N və T.C» ilk başlanğıcdan müəssisənin fəaliyyətini genişləndirmək üçün vəsait çatışmazlığına məruz qalırdı. Rus hökumətinə və rus kapitalistlərinə müraciətlərin isə heç bir nəticəsi olmurdu. Müəssisənin maliyyə vəziyyəti o qədər sarsıldı ki, onun səhmləri «Rotşild qardaşları» Paris Bankir evinə girov verildi. 1885-ci ildə «B.N və T.C» «Xəzər-Qara dəniz cəmiyyəti»nə çevrildi. Cəmiyyətin kapitalı 6 milyon rubl təşkil edirdi. 1886-cı ildə «Xəzər-Qara dəniz cəmiyyəti»nin nəzarət aksiya paketi Rotşild tərəfindən ələ keçirildi (8, səh. 665).

1911-ci ilin noyabrında əldə edilmiş razılığa əsasən Rotşildin Rusiyadakı bütün müəssisələri, «Xəzər-Qara dəniz cəmiyyəti» və «Mazut» da daxil olmaqla «Royal Datç Şell»in əlinə keçdi. Bunun əvəzində Rotşild qardaşları ingilis-holland trestinin 20% səhmlərini alır. Bu zaman «Xəzər-Qara dəniz cəmiyyəti»nin kapitalı 11 milyon rubl təşkil edirdi (5, səh.317).

1912-ci ildə «Xəzər-Qara dəniz cəmiyyəti» səhmlərinin, 1914-cü ildə isə əsas kapitalının çox hissəsi «Şell»in ixtiyarına keçmişdir (2, səh.48).

«Xəzər-Qara dəniz cəmiyyəti»nin əsas kapitalı 1914-1917-ci illərdə 10 milyon rubl olmuşdur. Neft mədənləri Bakı rayonunda olan bu cəmiyyət beynəlxalq Petroqrad və Sibir ticarət banklarının təsiri altında «Şell» qrupuna məxsus idi (9, səh. 542).

1883-cü ildə neft hasilatı, daşınması, saxlanılması və ticarəti ilə əlaqədar yaradılan Rus «Neft» cəmiyyəti də Petroqraddan idarə olunurdu. Bu cəmiyyətin Bakıda neft mədənləri, kerosin və kimya zavodları var idi. Rus «Neft» səhmdar cəmiyyətinə "Rus-Asiya" bankı nəzarət edirdi. Rus «Neft» cəmiyyəti bankların hesabına 1911-ci ildəki 5,5 milyon rublluq əsas kapitalını 1914-cü ildə 24,75 milyon rubla qədər artırmışdır (8, səh. 732).

Banklar öz nəzarəti altında olan müəssisələri həvəslə maliyyələşdirirdilər. Kreditlərin artırılması və banklarda xüsusi cari hesabların açılması da bu məqsədə xidmət edirdi. 1914-cü ilin iyununda Rus «Neft» cəmiyyəti ilə "Rus-Asiya" bankı arasında bağlanmış saziş yuxarıda deyilənləri təsdiq edir. Həmin sazişə əsasən Rus "Neft" cəmiyyətinə xüsusi cari hesab açan "Rus-Asiya" bankı bu kreditlərdən istifadə haqqı kimi illik 7%

hesabı ilə gəlir götürür və həmin faizin həcmi bütün il boyu sabit qalmalı idi. (6 səh.219)

1917-ci ildə Rus «Neft» cəmiyyəti əsas kapitalını 76 milyon rubladək artırdı, yəni Rusiyada fəaliyyət göstərən bütün səhmdar şirkətlərin arasında ən çox kapitala malik oldu. (7, səh. 122).

Kapitalları artırmaqda neft firmalarının güddükləri əsas məqsəd bu və ya digər bankla «mənafe birliyi» yaratmaq üçün onun himayədarlıq etdiyi müəssisələrin səhm nəzarət paketlərini birgə satın almaqdan ibarət idi. Son nəticədə həmin paketlər bankların sərəncamına keçdiyindən bu əməliyyat onların firmaların praktik fəaliyyətinə təsirinin möhkəmlənməsinə gətirib çıxarırdı. (7, səh.122).

Beləliklə, Quzey Azərbaycanda neft sənayesi firmalarının fəaliyyəti kommersiya banklarının maliyyə yardımı ilə müəyyənləşirdi. Qiymətli kağızların çoxsaylı alqı-satqısı nəticəsində neft sənaye müəssisələri səhmlərinin xeyli hissəsi bankların seyflərində, bank səhmləri isə neft firmalarının seyflərində qorunub saxlanılırdı. Neft firmaları və banklar arasında mənafe birliyinin əmələ gəlməsi iri və güclü inhisarçı birliklərin yaranması üçün əlverişli şərait yaratdı.

Beləliklə, səhmdar cəmiyyətlərinin yaranması Quzey Azərbaycanda neft sənayesinin inkişaf prosesinə güclü təsir göstərmişdir..

## ƏDƏBİYYAT


1. Azərbaycan tarixi. B. 1994
2. Ахундов Б.Ю. Монополистический капитал в доревлюционной Бакинской нефтяной промышленности. М. 1959
3. Azerbajan international. California, USA Spring. 1994
4. "Бакинский спутник" Б. 1908
5. Фурсенко А.А. "Нефтяные тресты и мировая политика". М-Л, 1965
6. İsmayılov M., İbrahimov M. Azərbaycan neft sənayesinin intiqabaqədərki tarixi. B. 1991
7. Ибрагимов М.Дж. Нефтяная промышленность Азербайджана в период империализма. Б. 1984
8. Монополистический капитал в нефтяной промышленности России (1883-1914), М-Л 1961
9. Монополистический капитал в нефтяной промышленности России (1914-1917). Л. 1973

**ПЕРВОЕ АКЦИОНЕРНОЕ ОБЩЕСТВО НЕФТЯНОЙ ПРОМЫШЛЕННОСТИ СЕВЕРНОГО АЗЕРБАЙДЖАНА И ИХ ДЕЯТЕЛЬНОСТЬ**

**А.М.ГАЗИЕВ**

**АННОТАЦИЯ**

В статье большое внимание уделено образованию первых акционерных обществ Северного Азербайджана и их связям с банками.